# MİRZƏ RƏHİMOV - 90



Filologiya elmləri doktoru, professor Mirzə Şıxəli oğlu Rəhimov 1929-cu il dekabr ayının 15-də Azərbaycan Respublikasının Astara şəhərində dünyaya gəlmişdir.

1948-ci ildə Azərbaycan (indiki Bakı) Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinə daxil olub həmin fakültəni 1953-cü ildə İran filologiyası ixtisası üzrə bitirsə də, elmi yaradıcılıq karyerasına türkoloq kimi başlamışdır.

SSRİ EA Dilçilik İnstitutunun aspiranturasında təhsilini davam etdirən (1953-1956) gənc tədqiqatçı 1957-ci ildə "Azərbaycan dilinin XIV- XVIII əsrlərə aid yazılı abidələrində feilin indiki və gələcək zamanlarının ifadə formaları" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

Həm yazılı abidələrin dilini, həm də türk iltisaqi quruluşunun tipoloji xüsusiyyətlərini səciyyəvi bir nitq hissəsinin nümunəsində dərindən araşdıran Mirzə Rəhimov çox keçmir ki, "Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixi" mövzusundakı doktorluq dissertasiyasını da başa çatdırır.

Akademik Tofiq Hacıyev xatırlayır ki, Mirzə müəllimin "doktorluq müdafiəsi bugünkü kimi yadımdadır. Müdafiə (1966 - da) 1926-cı il Türkoloji Qurultayının 40 illik yubileyi günlərində oldu. Yubileyə toplanmış görkəmli dünya türkoloqları da müdafiədə iştirak etdilər. Həm yaşına, həm də məzmununa görə o zamankı türkologiyanın ağsaqqalı A.N.Kononovla Mirzə Rəhimovun polemikası da yadımdadır. Gənc Mirzə Rəhimov bu nəhəng alimlə eyni səviyyədə fikir mübadiləsi apardı".

"Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixi" müdafiədən bir il əvvəl (1965) akademik M.Şirəliyevin elmi redaktorluğu ilə monoqrafiya kimi nəşr olunmuş və türkologiyada böyük maraq doğurmuşdu. Həmin maraq sonrakı illərdə daha da artaraq yalnız bu fundamental əsərin müəllifinə deyil, bütövlükdə Azərbaycan türkologiyasına şöhrət gətirdi.

Feilin xəbər şəkli müəllifin namizədlik dissertasiyasında qismən əhatə olunduğundan, eləcə də həmin şəkil, xüsusilə onun zaman kateqoriyası ilə əlaqələri barədə ayrıca əsər üzərində işlədiyinə görə Mirzə Rəhimov burada feilin əmr, arzu, şərt, vacib və lazım şəkillərindən bəhs etmişdir.

"Azərbaycan dilində feil şəkillərinin formalaşması tarixi"nin həm Azərbaycan dilçiliyində, həm də türkologiyada haqlı olaraq çox yüksək qiymətləndirilən üç əlamətdar cəhəti var:

1) əsərdə türk dilləri qrammatikasının ən səciyyəvi kateqoriyası olan feil, onun xüsusi zənginliyi (və rəngarəngliyi) ilə seçilən şəkilləri bütün struktur-semantik nüansları baxımından hər cəhətdən böyük peşəkarlıqla araşdırılmaqla həmin hadisənin, demək olar ki, heç bir ciddi mübahisəyə yer qoymayan mükəmməl təkamül model-mənzərəsi yaradılmışdır;

2) müəllif, bir tərəfdən Azərbaycan dilinin "Kitabi-Dədə Qorqud"dan başlayaraq bütün mühüm yazılı abidələrini mövzunun tələbləri miqyasında araşdırmış, digər tərəfdən, həm ümumtürk, həm də başqa türk

dillərinin müvafiq faktlarını müqayisəyə cəlb etməklə problemin daha geniş ümumtürkoloji kontekstdə həllinə nail olmuşdur;

3) nəhayət, tədqiqatçı istər bütövlükdə müqayisəli qrammatikanın metodoloji prinsiplərinə, istərsə də həmin prinsiplərin türk dillərinə tətbiqi təcrübəsinə dərindən bələd olduğuna görə onun qənaətləri hər cəhətdən ümumi tipoloji əhəmiyyət kəsb etməkdədir.

Mirzə müəllim Azərbaycan dili tarixi üzrə görkəmli mütəxəssis olmaqla yanaşı, keçən əsrin 60-cı illərində, eləcə də 70-ci illərin əvvəllərində ümumən Azərbaycan dilçilik elminin inkişafı üçün unudulmaz təşkilatçılıq xidmətləri də göstərmişdir. Belə ki, 1956-1961-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat və Dil İnstitutunda elmi katib, 1961-1968-ci illərdə Azərbaycan dili tarixi şöbəsinin müdiri, 1968-1973-cü illərdə isə direktor müavini vəzifələrində çalışmış, yeni dilçi-türkoloqlar nəslinin yetişməsində intellektini, təcrübəsini və zəhmətini əsirgəməmişdir.

Mirzə Rəhimov 1975-ci ildə Azərbaycan (indiki Bakı) Dövlət Universitetinə, doğma Şərqşünaslıq fakültəsinə qayıdaraq İran filologiyası kafedrasına rəhbərlik etməyə başlamış, fars dilinin daha mükəmməl elmi-nəzəri və metodoloji əsaslarla tədrisinə yardım edən yeni dərsliklər, proqramlar və digər vəsaitlər hazırlamış, yüksək ixtisaslı mütəxəssislər yetirmişdir. Və bu sahədəki xidmətlərinə görə Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür.

Böyük türkoloq, iranşünas, görkəmli araşdırıcı-müəllim Mirzə Şıxəli oğlu Rəhimov 2015-ci il oktyabrın 19-da vəfat etmişdir.

*Nizami Cəfərov*